

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 136 (21.797)

*21 iyul 2017-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də jurnalistlər üçün tikilmiş növbəti binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak edib.

Dövlətimizin başçısına yeni bina barədə məlumat verilərək bildirilib ki, jurnalistlər üçün inşa edilən ikinci binada 255 mənzil var. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə tikilən 3 bloklu, 17 mərtəbəli bu binanın ümumi inşaat sahəsi 34 min kvadratmetrdir. Binada 9 bir otaqlı, 144 ikiotaqlı, 93 üçotaqlı və 9 dördotaqlı mənzil var. Binanın həyətində idman meydançası yaradılıb, geniş abadlıq işləri görülüb.

Sonra Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Daha sonra Prezident İlham Əliyev binanın istifadəyə verilməsini bildirən rəmzi lenti kəsib və mənzillərdə yaradılan şəraitlə tanış olub.

Sonra Prezident İlham Əliyev jurnalistlər üçün inşa ediləcək üçüncü yaşayış binasının təməlini qoyub.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası 2017-ci il iyul ayının 25-də saat 11[00]-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2017-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. "Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi
3. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi
4. "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi
5. "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsi
6. "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 iyul 2017-ci il*

## 2017-ci ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar cari ilin ilk altı ayı ərzində də qorunub saxlanılmış, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilmişdir.

Hesabat dövrünün ən mühüm hadisələrindən biri ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri olmuşdur. Ölkə başçısı səfəri zamanı Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün yaşayış binasının, Naxçıvan şəhər 3 nömrəli tam orta məktəb binasının, Culfa və Şahbuz rayonlarının mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılış, Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimlərində iştirak etmiş, muxtar respublikada aparılan irimiqyaslı tikinti-quruculuq tədbirlərini yüksək qiymətləndirərək demişdir: ***"Doğrudan da son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

Cari ilin yanvar-iyun aylarında ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 208 milyon manatdan artıq olmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,6 faiz artaraq 2686 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 30,5 faizlik payla sənaye tutmuş və maddi istehsalın payı 57,8 faiz təşkil etmişdir.

2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-iyun aylarında sənaye məhsulunun həcmi 1,2 faiz, əsas kapitala yönəldilən investisiyalar 1,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 3,1 faiz, nəqliyyat sektorunda yük daşınması 1,9 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 2 faiz, o cümlədən mobil rabitə xidməti 1,8 faiz, pərakəndə əmtəə dövriyyəsi 1,3 faiz, əhaliyə göstərilən pullu xidmətlər 1,7 faiz, ixracın həcmi 1,3 faiz, əhalinin gəlirləri 1,1 faiz artmışdır.

### Makroiqtisadi göstəricilər

| Müqayisə predmeti | 2017-ci ilin yanvar-iyun ayları (min manat) | 2017-ci ilin yanvar-iyun ayları 2016-cı ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul | 1208548,6 | 101,3* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 2686,3 | 104,6 |
| Sənaye məhsulunun ümumi həcmi | 523693,4 | 101,2* |
| Əsas kapitala yönəldilən investisiyalar | 536605,4 | 101,3 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 122439,8 | 103,1* |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 7359,6 | 101,9 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 25144,0 | 102,0 |
| o cümlədən mobil rabitə üzrə | 20729,0 | 101,8 |
| Pərakəndə əmtəə dövriyyəsi | 674238,9 | 101,3* |
| Əhaliyə göstərilən pullu xidmətlər | 93545,2 | 101,7* |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 203822,2 | 98,4 |
| o cümlədən ixracın ümumi həcmi | 190657,8 | 101,3 |
| idxalın ümumi həcmi | 13164,4 | 69,8 |
| Əhalinin gəlirləri | 819988,1 | 101,1 |
| Hər bir nəfərə düşən gəlirlər, manat | 1822,6 | 100,1 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 414,1** | 102,5 |

*) müqayisəli qiymətlər üzrə
**) yanvar-may ayları

### Sənaye

Muxtar respublikada son dövrlər aparılan uğurlu sənayeləşmə prosesi və yeni məhsul növlərinin istehsalının təmini bu sahənin dinamik inkişafını sürətləndirmişdir.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikada 523 milyon 693 min 400 manat həcmində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələmişdir.

Sənaye məhsulu istehsalının 96 faizi malların, 4 faizi isə xidmətlərin payına düşmüşdür. Sənayenin dövlət sektorunda 23 milyon 250 min 700 manatlıq, qeyri-dövlət sektorunda isə 500 milyon 442 min 700 manatlıq məhsul istehsal olunmuşdur. İstehsal olunan sənaye məhsulunun 95,6 faizi özəl sektorun payına düşmüşdür.

***Sənaye məhsulu istehsalının dinamikası, min manat***




2017-ci ilin ilk yarımilində muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 23 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmışdır. Hazırda 28 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilir.

Sənayedə istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərmiş, cari ilin yanvar-iyun aylarında 150 milyon 610 min 600 ABŞ dolları dəyərində məhsul ixrac olunmuşdur.

### Hərbi quruculuq

Muxtar respublikada ordu quruculuğu istiqamətində tədbirlər davam etdirilir. 2017-ci ilin yanvar-iyun aylarında Naxçıvan şəhərində mərkəzi hərbi xəstəxananın, təlim-tədris mərkəzinin, tibb və texniki qulluq məntəqələrinin, avtomobil dayanacağının, anqarın tikintisi, sərhəd dəstəsi binasının yenidən qurulması davam etdirilmişdir. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında infrastruktur obyektlərinin tikintisi başa çatdırılmışdır. Şərur rayonunda "N" hərbi hissədə infrastruktur obyektlərinin tikintisi davam etdirilir.

Babək rayonunda anqarın tikintisi başa çatdırılmış, Culfa rayonunda dörd, Şahbuz rayonunda iki anqarın, Babək rayonunda texniki istismar hissəsinin tikintisi davam etdirilir.

Şərur rayonunda əsgər yeməkxanasının tikintisi, qərargah binasının və əsgər yataqxanasının əsaslı təmiri davam etdirilir.

*Ardı 2-ci səhifədə*

## Tikinti-quruculuq və su təchizatı tədbirləri

Muxtar respublikada infrastruktur quruculuğu tədbirləri çərçivəsində 2017-ci ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 536 milyon 605 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 506 milyon 910 min manatı və ya 94,5 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikada 78 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 134 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir.

Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi üzrə tədbirlər 2017-ci ilin yanvar-iyun aylarında da davam etdirilmiş, 3 kənd mərkəzi istifadəyə verilmişdir. 8 kənd mərkəzində tikinti işləri davam etdirilir.

Muxtar respublikada iki yaşayış binasının tikintisi, bir yaşayış binasının yenidən qurulması başa çatdırılmış, iki yaşayış binasının tikintisi, beş yaşayış binasının yenidən qurulması, bir yaşayış binasının əsaslı təmiri davam etdirilir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmişdir. 2017-ci ilin ilk yarımilində muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 235 min 320 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 1,1 faiz çoxdur.

Naxçıvan şəhərində və Şahbuz rayonunda çirkab sutəmizləyici qurğunun, Şərur, Babək, Ordubad, Kəngərli və Sədərək rayonlarında içməli su və kanalizasiya xətlərinin tikintisi davam etdirilmişdir.

## Kənd təsərrüfatı və yaşıllaşdırma tədbirləri

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli məhsullar hesabına ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, daxili bazarda məhsul bolluğu yaradılmışdır.

2017-ci ilin məhsulu üçün 61 min 531 hektar sahədə əkin aparılmışdır ki, bu da 2016-cı ilin məhsulu üçün əkilmiş sahədən 5 hektar çoxdur.

*Cəmi əkin sahələri, hektarla*




Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunmuşdur. Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində ayrılan qrant hesabına Naxçıvan Muxtar Respublikası “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinə yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqları – 5 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, 5 filtrtəmizləyici, avtobus, hidravlik ekskavator, yanacaq tankeri, toxumörtən, diskli kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, 2 elevator, 80 tonluq elektron tərəzi, eləcə də digər maşın və avadanlıqlar təqdim olunmuşdur. Yeni alınan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına toxumçuluq laboratoriyasında yüksək məhsuldarlığa malik xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortları yetişdiriləcək, toxumların genofonduna və seleksiyasına nəzarət olunacaqdır. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

Ötən dövr ərzində muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılmış və 2017-ci ilin məhsulu üçün 31632 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 30320 hektarı payızlıq, 1312 hektarı isə yazlıq taxıldır. Taxıl zəmilərinin 22268 hektarında buğda, 9364 hektarında isə arpa əkilmişdir. Bir il öncəyə nisbətən taxıl əkini sahəsi 53 hektar artmışdır. Hazırda taxıl zəmilərindən məhsul tədarükü davam etdirilir.

Tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmış və 2017-ci ildə 3183 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2016-cı ildə əkilmiş sahədən 130 hektar çoxdur.

2017-ci ildə muxtar respublikada tütünçülüyün inkişafı istiqamətində də tədbirlər görülmüş, Kəngərli rayonunda 9 hektar sahədə tütün əkini aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası da muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaratmışdır.

Cari ilin ötən dövründə üzümçülüyün inkişafı istiqamətində yerli resurslardan istifadə olunmaqla üzüm bağlarının salınması üçün tinglərin becərilməsinə başlanılmışdır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmaqdadır. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 143 ədədi 2017-ci ilin yanvar-iyun aylarında olmaqla, cəmi 1978 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2017-ci ilin yanvar-iyun aylarında əvvəlki dövrlərdə gətirilənlərlə birlikdə 152 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş, 7 ədədi nağd yolla satılmışdır. Bu dövr ərzində məhsul istehsalçıları 5293 ton mineral gübrə ilə təmin olunmuşdur.

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafı da diqqətdə saxlanılmışdır. Cari ilin ilk yarımilində 8 heyvandarlıq təsərrüfatı yaradılmış, ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 851 min 700 manat həcmində kredit verilmişdir.

Ötən dövr ərzində süni mayalandırma istiqamətində tədbirlər həyata keçirilmiş, bu sahənin maddi-texniki bazası gücləndirilmişdir. 2017-ci ilin ilk yarımilində muxtar respublikada heyvandarlıq təsərrüfatlarında 5615 baş inək, düyə və camış süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 3806 baş sağlam bala alınmışdır. 1 iyul 2017-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 120 min 7 baş, qoyun və keçilərin sayı 754 min 667 baş olmuşdur ki, bu da 1 iyul 2016-cı il tarixə olan göstəricilərdən müvafiq olaraq 1,6 və 1,9 faiz artıqdır.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikada diri çəkidə 11550 ton ət, 47694 ton süd istehsal olunmuşdur ki, bu da 2016-cı ilin yanvar-iyun ayları ilə müqayisədə müvafiq olaraq 2,3 və 1,3 faiz çoxdur.

Daxili bazarda tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə 2 quşçuluq təsərrüfatı yaradılmışdır. Hazırda 3 quşçuluq təsərrüfatının yaradılması davam etdirilir.

Muxtar respublikada arıçılığın inkişafı üzrə də mühüm tədbirlər həyata keçirilməkdədir. İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. 2017-ci ilin ilk yarımilində bu sahədə müvafiq tədbirlər görülmüş, təsərrüfat subyektlərinə 15 min manat həcmində kredit verilmişdir.

Cari ilin ilk yarımilində kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 1 milyon 206 min 300 manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur.

2017-ci ilin yanvar-iyun aylarında bir il öncəyə nisbətən 3,1 faiz çox, yəni 122 milyon 439 min 800 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

*Kənd təsərrüfatının ümumi məhsulu, min manat*




Etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını artırmış, 2017-ci ilin ilk yarımilində muxtar respublikadan 40 milyon 47 min 200 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur.

Meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmış, Culfa rayonu ərazisində və Şahbuz rayonunun Kiçikoba kəndində suvarma boru xətlərinin tikintisi, Şərur rayonunun Alışar və Qışlaqabbas, Babək rayonunun Hacıvar kəndlərində və Babək qəsəbəsində qapalı drenaj xətlərinin çəkilişi, Şərur rayonunda Arpaçayda, Babək rayonunda Cəhriçayda, Naxçıvançayda və Qahab selovunda istiqamətləndirici bəndlərin tikintisi başa çatdırılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndində qapalı suvarma şəbəkəsinin, Şərur rayonunun Yuxarı Aralıq kəndində suvarma kanalının tikintisi, Kəngərli rayonunun Böyükdüz kəndində suvarma boru xəttinin bərpası, Şərur, Babək və Sədərək rayonlarında kollektor-drenaj şəbəkələrinin təmizlənməsi, Naxçıvan şəhərinin Qaraçuq kəndində qapalı drenaj, Babək rayonunun Hacıvar kəndində açıq drenaj xətlərinin çəkilişi, Uzunoba Su Anbarına sugətirici kanalın təmiri davam etdirilir.

Muxtar respublikada 7 kəhrizin təmiri başa çatdırılmış, 5 kəhrizin təmiri hazırda davam etdirilir.

Meşə fondunun mühafizə olunması, bərpası, yeni meşəliklərin salınması istiqamətində də tədbirlər görülmüş, cari ilin ötən dövründə 273,8 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 196 min 400 ədəd ağac və bəzək kolları əkilmişdir.

## Nəqliyyat, informasiya və rabitə, energetika

İqtisadiyyatın aparıcı sahəsi olan nəqliyyatın inkişafı istiqamətində muxtar respublikada ardıcıl tədbirlər görülmüşdür. Cari ilin ilk yarımilində Kəngərli rayonunun Qıvraq qəsəbəsində daxili yolun, Şərur rayonunun Ələkli, Yuxarı Aralıq və Aşağı Aralıq, Babək rayonunun Payız, Kəngərli rayonunun Qarabağlar, Culfa rayonunun Dizə, Şahbuz rayonunun Badamlı kəndlərində avtomobil yollarının yenidən qurulması davam etdirilmişdir.

Naxçıvan şəhərində yerüstü piyada keçidinin və 400 yerlik avtomobil parkının tikintisi, Naxçıvan şəhəri Xətai məhəlləsi-Şıxmahmud-Xəlilli avtomobil yolunun, Şərur rayonunun Vərməziyar-Ərəbyengicə-Qarahəsənli-Çəmənli avtomobil yolunun, Kəngərli rayonunun Qıvraq-Şahtaxtı avtomobil yolunun, Babək rayonunun Payız kəndində körpünün yenidən qurulması davam etdirilir.

Babək rayonunun Payız kəndində, Ordubad rayonunda Sabirkənddə və Ordubad şəhərində avtomobil yollarında istinad divarlarının, Babək rayonunun Payız kəndində və Kəngərli rayonunun Qarabağlar kəndində selötürücülərin, Şahbuz şəhərinin daxili avtomobil yollarında su kanallarının tikintisi davam etdirilir.

Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə Naxçıvan-Ərzurum avtobus marşrutu fəaliyyətə başlamışdır.

Culfa stansiyasında İstismar Vaqon Deposunun, Ordubad dəmir yolu sərnişin vağzalı binasının, Ordubad yol sahəsinin inzibati binasının və 4 saylı yol məntəqəsi binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri, Naxçıvan Beynəlxalq Hava Limanının karqo terminalının yenidən qurulması davam etdirilir.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikada nəqliyyat sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,9 faiz, sərnişin daşınması 2,3 faiz artmışdır. Yük və sərnişin daşınmasından, bütövlükdə, 26 milyon 3 min 500 manat gəlir əldə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 3,9 faiz çoxdur.

Muxtar respublikada informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi bu sahə üzrə göstərilən xidmətlərin əhatə dairəsini genişləndirmişdir.

Cari ilin ilk yarımilində Naxçıvan şəhərində 17 nömrəli yeni poçt bölməsi yaradılmış, Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Arpaçay kəndlərində yeni poçt bölmələri istifadəyə verilmiş, Çəmənli kəndində poçt bölməsi yeni binaya köçürülmüşdür. Ordubad rayonunda rabitə evinin tikintisi davam etdirilir.

Ardı 3-cü səhifədə

Naxçıvan şəhərinin Tumbul kəndində avtomat telefon stansiyası yeni binaya köçürülmüş, Şərur rayonunun Arpaçay və Çəmənli kəndlərinin hər birində 384 nömrə tutumlu avtomat telefon stansiyaları quraşdırılmışdır.

Babək rayonunun Cəhri və Nehrəm kəndlərində, Culfa rayonunun mərkəzi və Əbrəqunus kəndindəki avtomat telefon stansiyalarının hər birində 1 ədəd DSLAM avadanlığı quraşdırılaraq əhalinin genişzolaqlı internet xidmətindən istifadəsi təmin edilmişdir.

Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrası istiqamətində 41 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmişdir.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikada 1297 ədəd yeni telefon şəbəkəyə qoşulmuş, 1 iyul 2017-ci il tarixə hər yüz ailəyə 72 telefon aparatı, hər yüz nəfərə 104 mobil telefon düşmüşdür.

Cari ilin yanvar-iyun aylarında muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 2016-cı ilin müvafiq dövründəki göstəricini 2 faiz üstələyərək 25 milyon 144 min manat olmuşdur. Ümumi xidmətlərin 82,4 faizi mobil rabitənin payına düşmüşdür. Mobil rabitə xidmətlərinin həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz artmışdır.

Elektroenergetika sektorunda davamlı olaraq yeni güclərin yaradılması, infrastrukturun müasir standartlar səviyyəsində yenilənməsi istiqamətində tədbirlər davam etdirilir.

2017-ci ilin ilk yarımilində Ordubad rayonunda gücü 36 meqavat olan Ordubad Su Elektrik Stansiyasının tikintisi, Babək rayonunun Xal-xal kəndi ərazisindəki 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının gücünün daha 2 meqavat artırılması üzrə tədbirlər davam etdirilmişdir.

Muxtar respublikada 19,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətləri çəkilmiş, 7 ədəd transformator yarımstansiyası quraşdırılmışdır.

1 iyul 2017-ci il tarixə muxtar respublikada 85 min 238 əhali abonenti mavi yanacaqla təmin olunmuşdur.

## Sahibkarlıq fəaliyyəti, əhalinin gəlirləri və məşğulluq məsələləri

Muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər görülür.

2017-ci ilin ilk yarımilində muxtar respublikada sahibkarlara 1 milyon 814 min manat həcmində kreditlər verilmişdir. Bu dövr ərzində 24 hüquqi və 1158 fiziki şəxs qeydiyyata alınmışdır.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 371 növdə məhsul istehsal olunur. Bu məhsulların 121 növü ərzaq, 250 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Muxtar respublikada əhalinin gəlirləri bir il öncəyə nisbətən 1,1 faiz artaraq 819 milyon 988 min 100 manata, onun hər bir nəfərə düşən həcmi isə 1822,6 manata çatmışdır. Cari ilin yanvar-may aylarında orta aylıq əməkhaqqının məbləği 414,1 manat təşkil etmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 2,5 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmaqdadır.

Cari ilin yanvar-iyun aylarında muxtar respublikada 1302 yeni iş yeri yaradılmışdır ki, bunun da 1273-ü və ya 97,8 faizi daimi iş yerləridir. Əmək bazarının tələblərinə uyğun olaraq cari ilin ötən dövründə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, xalçaçı, elektrik montyoru, qaz avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər, bərbər, aşpaz köməkçisi və dayə peşələri olmaqla, ümumilikdə, 231 nəfər peşə kurslarına cəlb edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində cari ilin ötən dövrü ərzində 1646 nəfər müxtəlif peşələrə yiyələnmişdir.

## İstehlak bazarı

Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəltmiş, əmtəə dövriyyəsinin həcmini genişləndirmişdir.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikanın istehlak bazarında əhaliyə 767 milyon 784 min 100 manat həcmində istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çoxdur.

Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Arpaçay və Çəmənli kəndlərində xidmət mərkəzləri istifadəyə verilmişdir. Naxçıvan şəhərinin Qaraxanbəyli, Şərur rayonunun Qarahəsənli, Ələkli və Ərəbyengicə, Babək rayonunun Payız və Gərməçataq, Ordubad rayonunun Üstüpü, Culfa rayonunun Dizə kəndlərində xidmət mərkəzlərinin inşası davam etdirilir.

## Xarici ticarət, bank işi və sığorta fəaliyyəti

Muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmışdır.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi 203 milyon 822 min 200 ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 190 milyon 657 min 800 ABŞ dollarını ixrac, 13 milyon 164 min 400 ABŞ dollarını idxal təşkil etmiş və 177 milyon 493 min 400 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

Bank sektorunun inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası muxtar respublikada elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsinə, maliyyə vəsaitləri dövriyyəsinin sürətləndirilməsinə, nağd ödənişlərin azalmasına səbəb olmuş, məxaricdə emissiyanın xüsusi çəkisi 2016-cı ilin müvafiq dövründəki 45,1 faizdən azalaraq 36,3 faiz təşkil etmişdir.

1 iyul 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 60764-ə çatmışdır ki, bunun da 51631-i və ya 85 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-iyun aylarında açılmış 17611 bank hesabının 17553-ü aktiv hesablar olmuşdur.

1 iyul 2017-ci il tarixə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1250-yə çatmışdır.

Səmərəli sığorta sisteminin formalaşdırılması istiqamətində tədbirlər davam etdirilməkdədir. 2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikada sığorta növləri üzrə daxilolmalar 3713 min manat olmaqla, bir il önceki göstəricini 27,1 faiz üstələmişdir.

## Təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və turizm

Təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri çərçivəsində Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi və Naxçıvan Müəllimlər İnstitutu üçün korpusların tikintisi davam etdirilir.

Şərur şəhərində 1020 şagird yerlik 2 nömrəli, Naxçıvan şəhərinin Tumbul kəndində 376 şagird yerlik 13 nömrəli, Şərur rayonunun Çəmənli kəndində 380 şagird yerlik, Şahbuz rayonunun Kolanı kəndində 360 şagird yerlik tam orta məktəb binalarının tikintisi başa çatdırılmış, Naxçıvan şəhərinin Qaraxanbəyli, Şərur rayonunun Ərəbyengicə, Ordubad rayonunun Üstüpü, Culfa rayonunun Dizə kəndlərində məktəb binalarının tikintisi, Şərur rayonunun Ələkli və Qarahəsənli, Babək rayonunun Payız və Gərməçataq kəndlərində məktəb binalarının yenidən qurulması hazırda davam etdirilir.

Kəngərli rayonunun Qıvraq qəsəbəsində 224 yerlik uşaq bağçası binasının tikintisi başa çatdırılmışdır. Şərur rayonunun Ələkli kəndində uşaq musiqi məktəbi binasının yenidən qurulması hazırda davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" muxtar respublikada bu kateqoriyadan olan uşaqların təhsilinin təmin edilməsində və onların cəmiyyətə inteqrasiyasında böyük əhəmiyyətə malikdir.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Arpaçay və Çəmənli kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri başa çatdırılmışdır. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının yenidən qurulması, Şərur rayonunun Ərəbyengicə kəndində həkim ambulatoriyası binasının tikintisi hazırda davam etdirilir.

Sosial layihələr çərçivəsində 2017-ci ilin ilk yarımilində yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 375 cərrahi əməliyyat, o cümlədən 7 xəstədə açıq ürək, 41 xəstədə göz və 327 xəstədə digər müxtəlif əməliyyatlar aparılmışdır.

2017-ci ilin yanvar-iyun ayları ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 998 min 623 manat həcmində ünvanlı dövlət sosial yardımı ödənilmişdir. Bundan əlavə, ötən dövrdə muxtar respublikada 15 aztəminatlı ailənin hər birinə fərdi təsərrüfatlarını qurmaq üçün "Simmental" cinsli inəklər verilmişdir.

Bu dövr ərzində 246 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxslərə evlərində sosial-məişət xidmətləri göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 133 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 142 uşağın müalicəsi təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud 40 nəfər sanatoriya və müalicə pansionatlarına yollayışlarla təmin edilmiş, 182 nəfərə protezortopedik xidməti göstərilmiş, 55 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunmuşdur. Hesabat dövründə 19 nəfərin ölkə daxilində müalicəsinə, 22 nəfərin isə sosial-məişət şəraitinin yaxşılaşdırılmasına köməklik göstərilmişdir. Bundan əlavə, cari ilin ötən dövründə sağlamlıq imkanları məhdud 60 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahəti təmin olunmuşdur.

Məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində "Nəxşicahan-Med" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Əlillərin Bərpa Mərkəzinə xüsusi nəqliyyat vasitəsi və texniki reabilitasiya avadanlıqları təqdim olunmuşdur.

Muxtar respublikada iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar demoqrafik vəziyyətin daha da yaxşılaşmasını təmin etməkdədir. Belə ki, cari ilin may ayının 4-də muxtar respublikanın 450 mininci sakini dünyaya göz açmışdır. Bu münasibətlə Doğum Mərkəzində tədbir keçirilmiş, yeni doğulan körpənin valideyninə mükafat və hədiyyələr təqdim olunmuşdur. Son illər əhali artımında müsbət miqrasiya ilə yanaşı, yeni doğulanların sayı da əsas rol oynamış, muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 4 min 200 nəfər artaraq 1 iyun 2017-ci il tarixə 450 min 400 nəfəri ötmüşdür.

Muxtar respublikada pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılmışdır. Dövlət Sosial Müdafiə Fondu tərəfindən cari ilin ilk yarımilində pensiya və müavinətlərin ödənilməsinə bir il öncəyə nisbətdə 4,2 faiz çox, yəni 33 milyon 199 min manata yaxın vəsait yönəldilmişdir.

Muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilməkdədir. Cari ilin ötən dövrü ərzində "Xatun" Bədii Gimnastika Klubunun Şərur Olimpiya-İdman Kompleksində, Naxçıvan Dövlət Universitetində, "Naxçıvan" Universitetində və Naxçıvan Uşaq Bərpa Mərkəzində filialları yaradılmışdır. Bədii gimnastikanın inkişafı və qızların bu idman növünə cəlbi sahəsindəki səmərəli fəaliyyəti, eləcə də yaşayış şəraiti nəzərə alınaraq gənc idmançı mənzillə təmin olunmuşdur.

Şərur rayonunun Dəmirçi kəndində stadion yenidən qurulmuşdur.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. İslam mədəniyyəti nümunələri ilə zəngin və bəşər sivilizasiyasına dəyərli töhfələr vermiş Naxçıvan şəhəri 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilmiş altıncı konfransında 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli Sərəncamı ilə elan olunmuş müsabiqədə seçilmiş "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018" loqotipinin təqdimatı keçirilmiş, təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq Naxçıvan şəhərində məscidin, Şərur rayonunun Yengicə kəndində Şərq hamamının, Babək rayonunun Nehrəm kəndində İmamzadə tarixi abidəsinin, Kəngərli rayonunda Qarabağlar Türbə Kompleksinin bərpası davam etdirilmişdir. Bu dövr ərzində Naxçıvan şəhərində yeni istirahət parkı istifadəyə verilmişdir.

Kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmiş, Naxçıvan Dövlət Televiziyasının rayonlarda xüsusi müxbir postları yaradılmış, dövlət radiosunun internet üzərindən yayımı təmin olunmuşdur.

Muxtar respublikada infrastruktur quruculuğu tədbirlərinin genişlənməsi, turizmin kompleks şəkildə inkişafını təmin etmək üçün həyata keçirilən tədbirlər, yeni turizm obyektlərinin istifadəyə verilməsi bu sahənin inkişafı üçün əlavə imkanlar açmışdır.

2017-ci ilin yanvar-iyun aylarında muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 195 min 495 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 4,2 faiz çoxdur.

## Hüquq-mühafizə orqanları ilə iş

Muxtar respublikada hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının və bu sahədə çalışanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Cari ilin ötən dövründə muxtar respublikada təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, digər infrastruktur obyektlərinin, o cümlədən qaz kəmərlərinin, kommunikasiya xətlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin əsaslandırılmış şəkildə həll edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yerli istehsal olan 4 xidməti avtomobillə təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Xüsusi Təyinatlılar Şöbəsinin inzibati binasının və təlim mərkəzinin, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün yaşayış binasının tikintisi başa çatdırılmış, Sədərək rayonunda Sədərək sərhəd gömrük-buraxılış məntəqəsinin tikintisi hazırda davam etdirilir.

Aparılan təhlillər göstərir ki, muxtar respublikada həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ümumi inkişaf təmin edilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi***

***Məlumdur ki, alış-veriş üçün keçirilən vaxt sosial həyatın mühüm tərkib hissələrindən biridir. Bu, hər bir insanın vacib istehlak tələbatlarının ödənilməsi ilə yanaşı, eyni zamanda asudə vaxt keçirməyin də bir yoludur. Elə bu məqsədlə hər gün çox sayda insan dükan, bazar və marketlərə üz tutur, ticarət xidmətlərindən istifadə edir. Şübhəsiz, cəmiyyətin bütün sahələrində olduğu kimi, ticarət xidmətləri sahəsində də müasirləşmə, son nəticədə, hər birimizin rifahının göstəricisidir.***

# Müasir ticarət xidmətləri inkişafımızın göstəricisidir



Hər bir insanın ömür uzunluğu, təhsil və mədəni səviyyəsi ilə yanaşı, əhatə olunduğu xidmətlərin sayı və keyfiyyəti də onun yaşayış səviyyəsini müəyyənləşdirən mühüm şərtlərdən sayılır. Belə xidmətlər sırasında ticarət xidmətləri həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib.

Tarixən ticarət xalqımızın mühüm iqtisadi fəaliyyət növündən biri olub. Azərbaycanlı tacirlər dünyanın naz-nemətini ölkəmizə gətirib, bu torpaqda hasilə gələn məhsulları isə ixrac edirdilər. Qədim İpək Yolu üzərində Avropadan Çinə qədər hərəkət edən tacirlər Azərbaycan ərazisindən də keçib, yurdumuzun gözəlliyinə heyran qalıblar. Müasir dövrdə də ölkəmiz nəqliyyat imkanları, beynəlxalq ticarət əməliyyatları ilə dünyada özünü etibarlı tərəfdaş kimi tanıdaraq iqtisadiyyatını daha da möhkəmləndirib.

Müasir ticarət xidmətləri rəngarəng və çoxçeşidlidir. Bütün dünyada olduğu kimi, muxtar respublikamızda da ticarət xidmətləri sürətlə modernləşir, insanları maraqlandıran yeniliklər burada tətbiq olunur. İstehlakçı maraqlarının qorunması, alıcılara seçim imkanlarının yaradılması və daha da artırılması, elektron ödəniş alətlərindən istifadəyə və onlayn ticarətə üstünlük verilməsi müasir dövr ticarətinə xas olan əsas tələblərdəndir. Ənənəvi Şərq bazarlarına xas olan qələbəlik və kənd təsərrüfatı məhsulu istehsalçıları üçün təşkil olunan həftəsonu yarmarkaları da Naxçıvan əhalisinin müxtəlif çeşidli ərzaq və təzə meyvə-tərəvəz məhsulları ilə təmin olunmasında mühüm rol oynayır. İndi insanlar daha alış-veriş edərkən əsəb gərginliyi deyil, göstərilən xidmətlərdən məmnunluq hissləri keçirirlər. Ancaq ötənlərə nəzər salsaq görərik ki, bir çox səbəbdən yaxın keçmişdə ticarət xidmətləri nəinki insanların rifahına xidmət edən bir sahə, tam əksinə, dırnaqarası işbazların harda gəldi bazar açıb, alıb-aldatmaq meydanı olub.

Bir vaxtlar atomu, kosmosu ilə dünyaya meydan oxuyan keçmiş Sovetlər Birliyi dövründə insanların gündəlik rahatlığına hesablanmış müasir ticarət xidmətlərinin təşkili nədənsə yada düşmürdü. Keyfiyyətli istehlak mallarının qıt olduğu o dövrdə yarımqaranlıq, uçuq-sökük kənd dükanlarına, yaxud sanki alıcıların növbəyə durub mal alırmışlar kimi layihələndirilmiş geniş şəhər mağazalarına təzə mal gələn kimi müdir dərhal dost-tanışlarına xəbər göndərib





gizlicə həmin malları satardı. Sadə camaat da rəflərdə toz basıb qalmış köhnə, qiyməti enmiş malları almaqla güzəranına şükür edərdi.

Ticarət xidmətlərində yaşlı və orta nəslin yaxşı xatırladığı "piştaxta altından satış" üsulunun geniş tətbiq olunduğu həmin dövr 1990-cı illərin əvvəllərində daha da arzuedilməz hala gəlmişdi. Birdənbirə bazar iqtisadiyyatına keçidlə özünə varlanmaq fürsəti qazanmış, o dövrün təbirincə "alverçi" adlandırılan bir ovuc tacir dünyanın müxtəlif yerindən mənşəyi məlum olmayan hər cür ərzaq və qeyri-ərzaq məhsullarını daşıyıb daxili bazarı doldurar, onların birgünlük qazancından həvəslənən digər insanları, xüsusən uşaq və gəncləri də bu işə sövq edərdilər. Nəticədə, şəhər küçələrində karton qutuların üzərinə düzülmüş saqqızdan tutmuş dərman yeridilmiş toyuq buduna, dayanacaqlarda un kisələrinə doldurulmuş çörəkdən, elə buradaca asılmış kişi qalstuklarınadək hər şey satmaq və almaq mümkün idi. Hələ şəhərimizin bəzi yerlərindəki "cin" bazarlarını demirəm. Burada olan qeyri-leqal ticarətdən nə qədər adamın qısa müddətdə varlandığı, nə qədərinin isə, sözün əsl mənasında, soyulduğunu bir çoxumuz yaxşı xatırlayırıq. Bu barədə o dövr ziyalılarının ürək yanğısı ilə qələmə aldığı sözləri "Şərq qapısı" qəzetinin 10 yanvar 1996-cı il nömrəsindən də oxuyuruq. Qəzetin "Tək əldən səs çıxmaz" başlıqlı yazısında müəllif yazır: "Həqiqətən, son illər şəhərimizin siması adama heç də xoş gəlmir. Naxçıvan bir neçə il bundan qabaqkı şəhərə bənzəmir. Küçə-bacalar, xiyabanlar toz-torpaq, zir-zibil içərisindədir. Çox yerdə antisanitariya vəziyyəti hökm sürür. Şəhərdə gedən dağıntılar, parkların, xiyabanların, küçələrin bərbad vəziyyətə düşməsi, yaşıllıqların kor-koranə məhv edilib yerində komission mağazalarının və köşklərin yan-yana düzülməsinə, görəsən, kim cavabdehlik daşıyır? Əgər şəhərdaxili yollarda, küçələrdə hərə dəmir bir köşk qoyub alver edirsə, ətrafa yığın-yığın mer-meyvə qabığı, kağız-kuğuz, xarab olmuş tərəvəz kolları, kartof, kələm qalıqları atılırsa, onda hansı təmizlikdən danışmalıyıq? Əgər yollarda, məhəllələrdə nəzarətsiz ət kəsilirsə, mal-heyvanın qanı, zir-zibili ətrafa dağıdılırsa, kimi günahkar bilməliyik?"

Bir anlığa geri qayıdıb yenə həmin günlərə bir daha baxanda təkcə ticarət xidmətləri sahəsində nə qədər yol keçildiyinin şahidi oluruq. Müasir ticarət mərkəzlərimizdə əhaliyə nümunəvi xidmətlər göstərilməsi üçün hər cür şərait yaradılıb. Bir-birindən yaraşıqlı, geniş və işıqlı market və ixtisaslaşdırılmış mağazalar, təyinatına görə uyğun rəflərdə yerləşdirilmiş bol çeşiddə istehlak malları, lazım olan müxtəlif məhsulların rahat seçim imkanı, alış-veriş üçün tətbiq olunan elektron ödəniş alətləri və müştərilərlə güləruz rəftarı ilə seçilən gözəl geyimli satıcılar müasir Naxçıvanda göstərilən ticarət xidmətlərinin ümumi portretini formalaşdırır. İndi şəhərimizdə əhalinin sıx şəkildə istifadə etdiyi, bir-birindən geniş və rahat şəraitə malik bir neçə böyük ticarət mərkəzi, müasir standartlara uyğun xidmətlərin təklif olunduğu çox sayda mağaza və marketlər, butik və köşklər həm naxçıvanlılara, həm də turistlərimizə nümunəvi ticarət xidmətləri göstərir. Hər gün yüzlərlə və hətta minlərlə alıcının axın etdiyi bu ticarət obyektlərində bütün işlərin qaydasında getməsi üçün yaradılmış komfortlu şərait, son nəticədə, insanların rifahında və sahibkarın uğurunda özünü göstərir.

Ötən dövrdə Naxçıvanda yaradılan kənd və xidmət mərkəzləri ölkəmizdə bu sahədə həyata keçirilən ən uğurlu layihələrdən biridir. Xüsusən kəndtipli yaşayış məntəqələrində dövlətin yaratdığı xidmət mərkəzləri sakinlərin nümunəvi ticarət xidmətləri ilə təchiz olunmasında mühüm modeldir. Çünki bir idarəetmə sahəsi kimi ticarət xidmətlərinin də dövlət tənzimlənməsinə ehtiyacı vardır. Xüsusən xidmətlərin komfort baxımından yüksək standartlar səviyyəsində qurulması, sığorta, təhlükəsizlik, istehlakçı hüquqlarının qorunması, dövlət büdcəsinə vergilərin cəlb olunması və digər məsələlərin pərakəndə ticarət xidmətlərinin təşkilində həlli dövlətin mühüm tənzimləmə funksiyalarındandır. Burada həyata keçirilən işlərin əsas məğzi isə hər bir insanın yaşadığı həyatdan zövq alması, ailə büdcəsinə, vaxta qənaət və alınan mallara zəmanətdir. Beləliklə, bazar iqtisadiyyatına xas olan "müştəri hər zaman haqlıdır" ifadəsini yaxşı mənimsəmiş müasir ticarət şəbəkəsi muxtar respublikamızda istehlakçı maraqlarının, onların rahatlığının həmişə üstün olduğu xidmətlər təklif edir.

**Əli CABBAROV**

# Cari ilin ötən dövründə muxtar respublikada 1299 nəfər işlə təmin olunub

***Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" da bu məqsədə xidmət edən mühüm dövlət sənədidir. Proqramda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində görülən işlər muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir.

Əhalinin məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində muxtar respublikada həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bir daha onu göstərir ki, blokada şəraitində yaşaya-yaşaya hər hansı problemin həllinə nail olmaq mümkündür. Məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, muxtar respublikada cari ilin ötən dövrü ərzində şəhər və rayonlarımızın hər birində bir dəfə əmək yarmarkaları keçirilib. Yarmarkalarda 206 nəfər, ümumilikdə, ötən 6 ay ərzində 1299 nəfər işlə təmin olunub. Burada 16 nəfər, ümumilikdə, 156 nəfər peşə hazırlığına cəlb edilib. Həmin dövr ərzində 136 nəfər ictimai işlərə, 6 nəfər kvota yerinə göndərilib. 51 nəfər ixtisasartırma, 24 nəfər Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində kurslara cəlb olunublar.

Məlumat üçün onu da bildirək ki, növbəti əmək yarmarkalarına iyulun 26-da start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad Qəsəbə Mərkəzində təşkil olunacaq. İyul ayının 27-də Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. İyulun 28-də keçiriləcək əmək yarmarkasının növbəti ünvanı Şahbuz şəhərindəki "Araz" kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından avqust ayının 1-də yararlana biləcəklər. Avqust ayının 2-də ordubadlılara, 3-də babəklilərə, 4-də isə şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası avqust ayının 8-də "Gənclik" Mərkəzində keçiriləcək.

**Muxtar MƏMMƏDOV**

*Yeni nəşrlər*

# *"Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı"* adlı monoqrafiya çapdan çıxıb




AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aygün Orucovanın "Cəlil Məmmədquluzadənin şeir yaradıcılığı" adlı monoqrafiyası işıq üzü görüb.

Kitab AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin elmi redaktorluğu, filologiya üzrə elmlər doktorları – Hüseyn Həşimli və Fərman Xəlilovun rəyləri ilə çap olunub.

Monoqrafiya akademik İsa Həbibbəylinin qələmə aldığı "Böyük ədibin şeir yaradıcılığı" adlı ön sözdən, giriş, 3 fəsil və nəticədən ibarətdir.

Əsərdə XIX əsrin sonlarında Naxçıvan ədəbi mühitinin yetirməsi olan yazıçı, dramaturq, "Molla Nəsrəddin" satirik məcmuəsinin və eyniadlı ədəbi məktəbin yaradıcısı Cəlil Məmmədquluzadənin zəngin və çoxcəhətli yaradıcılığının nisbətən az araşdırılan bir sahəsi tədqiqata cəlb olunub. Monoqrafiyada mollanəsrəddinçi satirik şeirin ideya-estetik, dil və ifadə xüsusiyyətlərinin formalaşdırılmasında Cəlil Məmmədquluzadənin rolundan əsaslı şəkildə bəhs edilir.

Kitabda uzun illər "Nə işim var?!" satirası ilə bağlı böyük ədibin, müasirlərinin yazdıqları qeydlərə, bu əsərlə əlaqədar mübahisələrin tarixi və məzmununa diqqət çəkilir və yeni mövqe ortaya qoyulur.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Bildiriş

"Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən muxtar respublika ərazisində dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların ərzaq məhsulları ilə təchizatının həyata keçirilməsi üçün nəqliyyat xidmətlərinin satın alınması ilə əlaqədar təkliflər sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Sorğunun nəticələri haqqında tender komissiyasının qərarına əsasən "Naxçıvan Bağları" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*"Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin tender komissiyası*


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Fatma Babayeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 584